# AZƏRBAYCAN RESPUBLIKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# SƏRƏNCAMI

**Bakı şəhəri** **№1/29** **14 may 2019-cu il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının Apellyasiya Şurasının və onun Katibliyinin tərkibinin təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında" 2016-cı il 3 fevral tarixli 762 nömrəli Fərmanına dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 aprel tarixli 1910 nömrəli Fərmanı ilə təsdiq edilmiş, yeni redaksiyada verilmiş "Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şurasının "Nümunəvi Əsasnamə"si barədə Fərmanından və "Dövlətə məxsus olan hüquqi şəxslərdə apellyasiya şuralarının yaradılması haqqında" 2019-cu il 6 may tarixli Fərmanından irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə və Auditorlar Palatasının sədr müavini Fəxrəddin İsmayılovun Azərbaycan Respublikası Auditorlar Palatasının Apellyasiya Şurasının və onun Katibliyinin tərkibi barədə təqdimatını nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının ərazisində sahibkarlıq fəaliyyəti, o cümlədən auditor xidmətinin göstərilməsi ilə məşğul olan fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, bu sahədə şəxslərin hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi məqsədilə aşağıdakı tərkibdə Azərbaycan Respublikası Auditorlar Palatasının Apellyasiya Şurası yaradılsın:

***Apellyasiya Şurasının sədri:***

İsmayılov Fəxrəddin Həsən oğlu - Auditorlar Palatası sədrinin müavini.

***Apellyasiya Şurasının üzvləri:***

İbrahimov Elnur Elxan oğlu - Sərbəst auditor;

Axundov Nazim Zakir oğlu - Sərbəst auditor;

Qurbanov Elçin İbad oğlu - Auditorlar Palatasının Şurası yanında Auditor fəaliyyətinə dair hüquqi məsələlər üzrə komitənin sədri;

Səfərova Aygün Saday qızı - "Alfa-Audit" Qapalı Səhmdar Cəmiyyətinin auditoru;

Süleymanova Elzadə Süleyman qızı - "Azel-Audit" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktor – auditoru.

Talıbov Nəcəf Musa oğlu - Auditorlar Palatasının Şurası yanında Elm və auditor fəaliyyətinin metodoloji

təminatı üzrə komitənin sədri;

***Apellyasiya Şurasının Katibliyi:***

| | |
|---|---|
| Əliyev İbiş Müseyib oğlu | - Auditorlar Palatasının Şurası yanında Etika, mübahisələr və intizam komissiyasının sədri – katibliyin rəhbəri. |
| Behbudova Elmira Yaşar qızı | - Palatanın kadr hazırlığı şöbəsinin müdiri – katibliyin üzvü; |
| Bənnayev Elxan Bəhmən oğlu | - Sərbəst auditor – katibliyin üzvü; |
| Əhmədov Misir Zaman oğliu | - "Azərbeynəlxalq audit xidməti" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktor-auditoru – katibliyin üzvü; |
| Hacı-Əzizov İlham İsfəndiyar oğlu | - Sərbəst auditor – katibliyin üzvü. |

2. Auditorlar Palatasının Apellyasiya Şurasına tapşırılsın ki, Apellyasiya Şurasında baxılan şikayətlərin uçotunu aparmaq, onları təhlil etmək, ümumiləşdirmək və ildə iki dəfə (iyul ayının 15-dək və yanvar ayının 15-dək) Auditorlar Palatasının sədrinə və tələb olunan formada Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasına yarımillik və illik arayışların (hesabatların) təqdim edilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasının qərarı daxil olduqda, həmin qərarın bir ay müddətində (bu qərarda ayrı müddət nəzərdə tutulmamışdırsa) icra edilməsi, yol verilmiş qanun pozuntularının aradan qaldırılması, o cümlədən qanunsuz qərarların ləğv edilməsi, təqsirkar şəxslərin məsuliyyətə cəlb olunması Apellyasiya Şurası və Auditorlar Palatası tərəfindən təmin edilməli, nəticəsi barədə Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasına və şikayətçiyə məktub göndərilməlidir.

4. Bu sərəncamın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**